AFAQ ŞIXLI

# MƏNDƏN UZAQDA...

- 2 0 0 8 -

©Xəzər Universiteti Nəşriyyatı, 2008
©Afaq Şıxlı, 2008

Kitabın redaktoru və ön sözün müəllifi:
**Knyaz ASLAN**

Afaq Şıxlı.
Məndən uzaqda... (Şeirlər).
Bakı: Xəzər Universiteti Nəşriyyatı, 2008.–108 s.

İstedadlı şairə Afaq Şıxlı oxucularla növbəti görüşə yeni şeirlər toplusu ilə gəlib. Bu şeirlərdən doğma Vətən məhəbbəti, müqəddəs sevgi hiss-həyəcanları boy göstərir.

**ISBN 978-9952-20-047-8**

Bakı şəhəri, Məhsəti küçəsi 11.
Tel. 421-79-16

# İ C İ N D Ə K İ L Ə R

**Knyaz Aslan.**
**Bir dağ çayı ömür yolum (Ön söz) .................... 6**

VƏTƏN BAYATILARI

!!! ........................................................................15
Bu nə sirdi? ............................................................. 16
Üzdü məni ...............................................................17
...şeirlərim ............................................................... 18
Məndən uzaqda ....................................................... 19
İstəyirəm! ................................................................. 20
Dünya yalan deyil! ....................................................21
Zaman ...................................................................... 23
Bir gün gələr... ......................................................... 25
Vaxtı var ...................................................................26
Yenə yolum düşdü... ................................................ 27
Həsrət ....................................................................... 29
Gəncliyim geri dönəydi! .......................................... 31
Köhnə dost ............................................................... 32
Bir şair var... .............................................................33
Bir tuzaqda ............................................................... 34
Vətən bayatıları .........................................................36
Şəhərimin küçələri .................................................... 38
Yağış ......................................................................... 39
Mən dedim ki... ........................................................ 40
Mən oyuncaq deyiləm! ............................................. 41
Sən uşaq olmamısan ..................................................42
Yenə yalan danışdın ...................................................44
Bilmədim ...................................................................45
Bahar, səni gözləyirəm! ............................................ 46
Tanıyaram ................................................................. 47
Qıyma, əcəl! ..............................................................48

Səni bir də görmək üçün! 50
Yoxluğunla barışmaram mən! 51
Götür məni! 52

BƏLKƏ BİR GÜN

İzin ver... ........................................................................ 55
Sən elə bilirdin ................................................................ 56
Neyləyəcəksən? ..............................................................57
Barışacaqmı? ...................................................................58
Bir sahil bağı .................................................................... 59
Gedirəm daha! .................................................................60
Deyilmi? ..........................................................................61
Əgər, sən istəsəydin ........................................................ 62
Niyə tələsirdim... ............................................................63
Əlvida dedin ....................................................................64
Gəlsən ............................................................................. 65
Bu məhəbbət ................................................................... 66
Deyir... ............................................................................ 67
Sevən zaman ................................................................... 68
Bir gün ............................................................................ 69
Tələs! ..............................................................................70
Dözmərəm .......................................................................71
Anlasan artıq! ..................................................................72
Ayırır bizi ........................................................................73
Özümə qaytar! .................................................................74
Deyirlər... ........................................................................ 75
Dön! ................................................................................ 76
Sev! ................................................................................. 77
Günahım var ....................................................................78
Gedirəm ...........................................................................79
Düşünmə məni! ...............................................................81
Sevirəm səni! .................................................................. 83
Bəlkə, bir gün... ..............................................................85
Mən də dedim unudaram ................................................ 86

Sevmə daha! ................................................................87
Bağışlamaram! ..........................................................89
İnanma! ...................................................................90
Sevdim səni ...............................................................91
Heyif ki... ..................................................................92
Giley .........................................................................93
Görüşənədək! ............................................................94
Dedin ........................................................................95
Mənəm ......................................................................96
Yarım var ..................................................................97
Gəl, yenidən başlayaq! ..............................................98

NƏĞMƏLƏR

Bir gün də olsa... .......................................................101
Yağış ...........................................................................102
Niyə getdin, ana? .......................................................103
Əlvida ..........................................................................104
Unutma məni! .............................................................105
Bilmədim ....................................................................106

## BİR DAĞ ÇAYI ÖMÜR YOLUM

Bir neçə il öncə istedadlı şairə Afaq Şıxlının “Sevərsənmi” adlı şeirlər kitabına ön söz yazarkən sözün məsuliyyətini, zəmanətin cavabdehliyini qəlbən duyub dərk edərək qələmini bədii ədəbiyyatın ayrı-ayrı növlərində – nəzmdə, nəsrdə uğurla sınayan gənc müəllifə yaradıcılıq yolunda yeni-yeni müvəffəqiyyətlər arzulamışdım. O zaman diqqətlə, qayğıyla, sevgiylə oxuduğum, ürəklə, ümidlə, cəsarətlə rəy verdiyim ədəbi nümunələr onun davamının yetərincə rəngarəng, yetərincə maraqlı olacağına məndə daxili bir əminlik yaradırdı.

Xeyli vaxtdır gözləri yolda qalmış ümidim bu yazağzı özünü doğrultdu, gilənar ağacı kimi çiçəklədi, yasəməntək ətir saçdı, qaranquşsayaq ilk bahardan müjdə gətirdi. Şeir-sənət xiridarı, söz sərrafı, əziz dostumuz İsaxan İsaxanlı bir müddət əvvəl uğurlu yol arzuladığımız Afaq Şıxlının növbəti şeirlər kitabının əlyazmasını mənə təqdim edəndə o çağlar əkilmiş qızılgül kollarının tumurcuq-tumurcuq pöhrələndiyini gördüm. Bir az məcazi, bir az da intizarlı “Sevərsənmi” sualına qədirbilən oxucuların müsbət cavabını eşidirmiş kimi sevindim. Qəlbi poetik duyğularla çırpınan kövrək bir həkim-şairin, şair-həkimin aramsız hiss-həyəcanlarını duydum.

*Bir azacıq rahatlıq,*
*Səadət istəyirəm.*
*Ürək dolu azadlıq,*
*Məhəbbət istəyirəm, -*

ovqatı üstündə bu dünyanın əzəli-əbədi, fəqət həmişə təzətər, hər zaman yeni çalarlı mövzularına köklənən;

*Bağçaların solmadığı,*
*Yamanların qalmadığı,*
*Xəyanətin olmadığı*
*Bir diyara götur məni, -*

xəyallarının haçansa gerçəkləşəcəyi arzusuna könül verən Afaq xanımın şeirlərini bir su içimi qədər rahatlıqla, bir hava udumu kimi xoşhallıqla oxuyub başa vardım. Şeirdən-şeirə, mövzudan-mövzuya keçibən ovqatdan-ovqata düşdükcə, duyğusal şairənin poetik məninin, lirik qəhrəmanın (eləcə də digər obrazların) psixoloji yaşantılarını içimdən keçirdikcə misra yüklü kağızları yenidən dönə-dönə vərəqlədim, tez-tez irəli-geri qayıdıb bir çox sorğularıma bəzən güllü-çiçəkli, bəzən boranlı-şaxtalı, bəzən də nisgilli-miskinli görünən duyğularda cavab tapmağa çalışdım.

Ən başlıcası onu müəyyənləşdirdim ki, Afaq Şıxlı nədən yazırsa-yazsın, hansı mövzuya üz tutursa-tutsun, böyük anlamda təpədən-dırnağacan türkçülük ideologiyasına, azərbaycançılıq məfkurəsinə sadiq qalır. Qərib eldə, qürbət diyarda, yadellilər sırasında, yaddillilər arasında azərbaycanlı mənəviyyatını, azərbaycanlı düşüncəsini, azərbaycanlı təfəkkürünü poetik yaddaşda bu cür qorumaq, milli adət-ənənələri öz yaradıcılığında bu şəkildə səmimiyyətlə əks etdirmək, açığı, bir çox qələm

adamlarına müyəssər olmur. Elə ana Azərbaycanın paytaxtında yaşayıb xalqa özünü Qərbli cildində sırımağa çalışan, amma cidanı çuvalda gizlətmək mümkün olmadığından dərhal da gülünc vəziyyətə düşən özündənrazı cızmaqaraçıları kim görməyib, ya kim eşitməyib ki?! Məntiqsiz tərzdə bir-birinin ardınca pərçimlənən, biri dağdan, biri arandan gələn kəlmələri “dost” və ya “post-modernist” kimi cürbəcür adlarla qiymətə mindirməyə çalışan, amma buna nail olmayan əllaməçiləri kim tanımır ki? Quraşdırdıqlarından nəinki özünün, heç fələyin də baş açmadığı üzdəniraq ədəbi ədabazlardan oxucunun ürəyində, dinləyicinin qafasında, zamanın yaddaşında nə qalacaq ki?!.

Şimal ölkəsinin mərkəzi şəhərində yaşayıb-yaradan Afaq Şıxlının şeirlərindəki doğma Vətən ətrini, müqəddəs torpaq qoxusunu, əziz Azərbaycan rayihəsini duyub hiss etdikcə nədənsə üryimdən ilk öncə elə bu fikirlər keçdi. Onu da gördüm ki, onun yaradıcılığında bütöv yurdun əsrarəngiz təbiətinə, misilsiz şan-şöhrətinə tükənməz bir məhəbbət boy göstərir:

***Çöl-çəməni, meşəsi,***
***Laləsi, bənövşəsi.***
***Mənim üçün cənnətdir***
***Vətənin hər guşəsi.***

Vətənpərvər bir ziyalı olaraq düşmən tapdağında inləyən torpaqlarımızın sızıltısına dözə bilməyən, kövrək şeirləri ilə zirvəsi qarlı, ətəyi barlı, qəlbi qubarlı dağlarımızın hələ də qaysaqlanmamış yaralarına məlhəm qoymağa çalışır həkim-şairə. O, eyni zamanda:

*Hanı o şən çağların,*
*Çiçəkli yaylaqların?*
*Gözləri yolda qalıb*
*Kəlbəcərdə dağların, -*

nisgilini öz taleyində yaşadan soydaşlarımızın qaçqınlıq-köçkünlük ağrısına acımaqla yanaşı, mənfur yağıların işğal etdikləri Azərbaycan ərazilərindən lap yaxın zamanlarda qovulacağı inamına qanad açır.

Bu da təbiidir. Axı bu misraların müəllifi Afaq xanım gözəl bilir ki, bədii ədəbiyytın vəzifələrindən biri də gənc nəsli düşmənə qarşı döyüşlərə səfərbər etmək, onlara mübarizlik, mətinlik, cəsurluq kimi müsbət keyfiyyətlər aşılamaqdan ibarətdir.

Fikir verin, doğrudan da bu həsrətli duyğuları yalnız paralanmış məmləkətin həssas şairi öz könül çırpıntılarına hopdura bilər:

***Fikrim qalıb torpağında, daşında,***
***Yel olaydım dağlarının başında.***
***Sel gücü var gözlərimin yaşında,***
***Tükənməzdir ürəyimin dözümü.***

Ürəyində tükənməz dözüm bəsləyən, “Doğma bir vətən var məndən uzaqda” deyən Afaq xanım:

***Bu bahar Qarabağı***
***Gəzəydim oymaq-oymaq!*** –

arzusunun çin olacağına da daxili bir qətiyyətlə ümid bəsləyir.

Elə başqa bir şeirindəki bu misralar da onun sönməz inamından, sarsılmaz əqidəsindən soraq verir:

***Dünyada hər bir kəs verir imtahan,***
***Qazanmaq çətindir, itirmək asan!***
***Solsa ümidlərin yenə döz, dayan,***
***Ağacın bir bəhrə verən vaxtı var!***

Afaq Şıxlı sözün qədrinin bildiyi kimi vaxtın da qədrini bilir. Ona görə də bu dünyaya gəlib bir ömürlük qonaq qalan insanları həyatı hədər keçirməməyə, hər anı, hər fürsəti mənalandırmağa səsləyir:

***Sovruldu yelə döndü,***
***Durmayan selə döndü,***
***An idi, ilə döndü***
***Qədribilinməz zaman.***

Şair əsrlərin, nəsillərin sınağından keçmiş sadə bir məntiqi öz şeirlərində bir daha təsdiqləyərək vurğulayır ki, keçmişə arxalanmayanın gələcəyi də yoxdur. Əlbəttə, dünyaya yenicə göz açan hər bir insan elə həyatı nağıl sana-sana yaşa dolur, yaşa dolduqca od-alova düşür, nə qədər yanıb-qarsalansa da gələcəyin nuru ilə könlünə təsəlli, özünə təskinlik verir, üzü xoşbəxtliyə doğru yürüyür:

***Həyatı bir nağıl sandım,***
***Yaşam uçun oda yandım.***
***Gələcəyə arxalandım,***
***Ötən illər üzdü məni.***

Afaq Şıxlının şeirlərinin çoxu eşq sətirli, sevgi ətirli, məhəbbət xətirlidir. Minillərdən bəri şairlərin sənət gülüstanında bol-bol görünən həsrət, hicran, ayrılıq, vəfa, sədaqət, etibar, vüsal və s. kimi tanış hiss-həyəcanlar onun yaradıcılığının aparıcı qolunu təşkil edir. Bu şeir-

lərdəki özünəməxsusluq onların səmimiliyində, təvazökarlığında, həyatiliyindədir. Şair yurda, bəşəriyyətə bütöv məhəbət bəslədiyi kimi sevgisindən də tamlıq, bütövlük umur və bu umacağında da tamamilə haqlıdır. Digər yöndən, Afaq xanımın sevgi şeirlərində təqdirəlayiq, tərifəlayiq, bənzərsiz bir qadın xarakteri də özünü büruzə verir. Bu məğrur obraz qız ləyaqətini, qadın mənliyini hər şeydən uca tutur və elə buna görə də oxucunun rəğbətini qazanır:

***Deyirlər, ürəyə hökm etmək olmaz,***
***Mənsə qəlbimə də hökm edərəm, bil!***
***Neçə yerə bölüb sədəqə kimi***
***Payladığin sevgi gərəyim deyil.***

Afaq xanımın yaradıcılığında misilsiz xalq çeşməsindən, rəngarəng aşıq sənətindən, əvəzsiz yazılı ədəbiyyatdan gələn motivlərin boy göstərməsi də təbiidir. Zəngin Azərbaycan ədəbiyyatının təsir dairəsi o qədər möhtəşəm, o qədər güclüdür ki, onu özünün iç dünyasından keçirib yeni söz demək üçün şeir-sənət meydanına girməyə cəsarət edən şairi bax elə bu dönməzliyinə görə ürəkdən alqışlamaq olar. Əsrlərdən bəri ulu ozanlarımızın, dədə aşıqlarımızın dilindən düşməyən qoşma-gəraylı biçimli şeirlərlə yaxından səsləşən bu bəndə fikir verin:

***Xoş arzular oldu yalan,***
***Satammıram, yox dərd alan.***
***Səni məndən ayrı salan***
***Yanası dilim deyilmi?!***

Tanışdır, təravətlidir, təzətərdir!.. Çünki Afaq Şıxlı bu bəlli hiss-həyəcanları, bu tanış kəlmələri özününkü-

ləşdirməyi, öz könül duyğularına hopdurmağı bacarıb. Ona görə də Afaq xanımın bu sayaq şeirlərini oxuyanda adamın yaddaşında qədim bir saz havası çalınır, ürəyə yatan bir nəğmə oxunur. Məncə, bu da şairin uğurudur!..

Afaq xanım sadə olduğu qədər də təvazökar şairdir. O, yazdıqları ilə öyünmür, əksinə, ən gözəl şeirlərini hələ innən belə yazacağı inamı ilə könül çırpıntılarını ağ vərəqlərə pıçıldayır. Şair kağıza köçürdüyü hər misranın, hər bəndin arxasında insan taleyinin, şair ömrünün, vətəndaş həyatının dayandığını yaxşı anlayır, onları sədaqətli dostlara əmanət kimi mənalandırır:

***Keçən günlərimə bəraətimdir,***
***Hər zaman qürurum, səadətimdir,***
***Mənim dostlarıma əmanətimdir -***
***Qələmim, kağızım və seirlərim.***

...Dağ çayları zümzüməli bulaqların göz yaşından yaranır. Zirvələrə, yamaclara, düzənlərə, dərələrə nəğmə qoşa-qoşa üzü dənizə doğru şütüyür. Zaman-zaman dolanbac dağ yollarında yalçın qayalara da çırpılır, sərt daşlara da!.. Amma öz məcrasını dəyişmir!.. Çünki onu gözləyən var. Elə Afaq Şıxlının dağ çaylarına bənzəyən, bəzən sakit, bəzən təlatümlü şeirləri kimi... Şairənin özü demişkən:

***Bir dağ çayı ömür yolum...***

**Knyaz ASLAN,**
**“Qızıl Qələm” mükafatı laureatı, şair-publisist**

# VƏTƏN BAYATILARI

## ! ! !

Anlar olur, insanlardan uzaq qaçmaq istəyirəm.

Fəzalara üz tutaraq, quş tək uçmaq istəyirəm.

Arzuların dolaşdığı bir adadır könlüm mənim.

Qəlbimdəki duyğuları duya bilsin sevənlərim!

# BU NƏ SİRDİ?

Bu nə sirdi, dayanmadan
Hey gedirəm birnəfəsə?!
Görənlər də qibtə edir
Məndə olan bu həvəsə.

Bir dağ çayı - ömür yolum,
Maneədir sağım-solum.
Cəhd edirlər məğlub olum -
Yollarımı kəsə-kəsə.

Hər yan olsa da daş-qaya,
Fərq qoymuram günə, aya.
Arzularım gəlmir saya,
Sığışmıram dar qəfəsə.

Mən də bir tanrı quluyam,
Hamı deyir: qürurluyam.
Gərək bu adı qoruyam,
Taleyimlə bəhsə-bəhsə.

# ÜZDÜ MƏNİ

Saf ürəkli bir mələkdim,
Uzaq ellər üzdü məni.
Açılmamış bir çiçəkdim,
Zalım əllər üzdü məni.

Bir ağılsız körpə quşdum,
Qanad açıb göyə uçdum,
Yuvamdan aralı düşdüm.
Əsən yellər üzdü məni.

Gördüyüm gün oldu haram,
Bilmədim ki, yoxam, varam.
Sağalmadı könül yaram,
Acı dillər üzdü məni.

Üz çevirdim bir tufana,
Umidlərim sına-sına.
Səd çəkmədim qarşısına,
Axan sellər üzdü məni.

Həyatı bir nağıl sandım,
Yaşam uçun oda yandım.
Gələcəyə arxalandım,
Ötən illər üzdü məni.

## ...ŞEİRLƏRİM

Məni bu dünyada ucaldacaqdır
Qələmim, kağızım və seirlərim!
Həssas könüllərdə yaşadacaqdır
Qələmim, kağızım və seirlərim!

Yazmaqla qurtarmaz kəlamım, sözüm,
Sonməzdir qəlbimdə alovum, közüm.
Varım-dövlətimdir, bilirəm özüm -
Qələmim, kağızım və seirlərim.

Hər dəfə dərdlərdən qurtarır məni,
Nağıl dünyasına aparır məni,
Bu üçlük həyata qaytarır məni -
Qələmim, kağızım və seirlərim.

Bir anda aləmi gəzib gələrəm,
Qayıdıb vətənə dönə bilərəm.
Sizinlə dünyada ən bəxtəvərəm,
Qələmim, kağızım və seirlərim!

İstəsəm qəlblərin buzu əriyər,
Gücsüzün önündə güclü baş əyər.
Mənimçün dünyada hər şeyə dəyər -
Qələmim, kağızım və seirlərim!

Keçən günlərimə bəraətimdir,
Hər zaman qürurum, səadətimdir,
Mənim dostlarıma əmanətimdir -
Qələmim, kağızım və seirlərim.

# MƏNDƏN UZAQDA..

Gunəş yox… Soyuqdur... Havada şaxta...
Əllərim üşüyür, donur ürəyim.
Doğma bir vətən var məndən uzaqda,
O isti qoynuna dönə biləydim...

# İSTƏYİRƏM

Bir azacıq rahatlıq,
Səadət istəyirəm.
Ürək dolu azadlıq,
Məhəbbət istəyirəm.

Çətinlikdən keçməyə,
Özümə yol seçməyə,
Həyatı dəyişməyə
Cəsarət istəyirəm.

Var vermişəm varımdan,
Dərd udmuşam arımdan.
Əzizimdən, yarımdan
Sədaqət istəyirəm.

Sözlərimdir silahım,
Düzgünlükdür günahım.
Eşit məni, Allahım,
Ədalət istəyirəm!

# DÜNYA YALAN DEYİL!

*Zərəngiz Şıxlının*
*“Dünya yalan deyildir“ şeirinə cavab*

Cahil nə anlasın, aqillər bilər:
Dünya həqiqətdir, bir yalan deyil!
Qoynuna kim gələr, kimlər köç eylər...
Bilirik bizlərə o qalan deyil!

Yazılan qismətlə olmasaq qane,
Yaşam uzun olar, səadət ani.
Bəzən aldansaq da, desək də fani,
Ədalətsiz yerə öc alan deyil!

Gedirik durmadan biz bilə-bilə,
Anlar uçub keçir, qarışıb yelə.
Günlər aya dönür, aylarsa ilə,
Aldığını geri qaytaran deyil!

İnsan düz danışsa gəldikcə səsi,
Edilən dualar olacaq bəsi.
Dar qəlbli olmasa, sevsə hər kəsi,
Yaxşılıq dünyadan yox olan deyil!

Səxavət cənnətin gizli açarı!
Tapdığın neməti payla tən yarı!
Nə qədər yığsan da dövləti-varı,
Heç kim özü ilə aparan deyil!

Bir pöhrə bəsləsək bizlərdən sona,
Qoymasaq şaxtadan, soyuqdan dona,
Kölgəsini salsa əgər hər yana,
Savab ömürlükdür, bircə an deyil!

Vətən müqəddəsdir, əzizdir vətən,
Yolunda gərəkdir candan keçəsən.
Dağının, daşının qədrini bilsən
Sən də şad olarsan, peşiman deyil!

Nağıldır, nəğmədir, sirdir təbiət -
Gecələr möcüzə, sabahlar cənnət!
Sevənlər bilirlər bu necə hikmət:
Məhəbbət ötəri bir duman deyil!

Afaq, bu həyatda sən tap özünü,
Eşidə bilsinlər ürək sözünü,
Sonunda vətəndə yum ki, gözünü,
Qürbət sənin üçün ağlayan deyil!
Vətənsiz ürəyin şad olan deyil!
Dünya - vətənimdir, bu yalan deyil!

# ZAMAN

Keçdi, tükəndi, bitdi,
Qədribilinməz zaman.
Bilmədik, ötdü getdi
Qədribilinməz zaman.

Sovruldu yelə döndü,
Durmayan selə döndü,
An idi, ilə döndü
Qədribilinməz zaman.

Gah xüftən, gah şam oldu,
Gündüzlər axşam oldu.
Əriyən bir şam oldu
Qədribilinməz zaman.

Xəyalda uça-uça,
Qırxa deyirdik “qoca”.
Oymuş hər şeydən uca -
Qədribilinməz zaman.

Sanırdıq bəxtiyarıq,
Sevincə, eşqə yarıq.
İndi biz ixtiyarıq,
Qədribilinməz zaman!

Bənizimiz saraldı,
Coxu getdi, nə qaldı?
Yaşadıqca azaldı
Qədribilinməz zaman.

Keçən geri qayıtmaz,
Arxasınca çatilmaz.
Etdiyinə darılmaz
Qədribilinməz zaman.

# BİR GÜN GƏLƏR...

Vətənimsiz mən yarımcan gəzirəm,
Yad yollarda itirmişəm izimi.
Yana-yana bu həsrətə dözürəm,
Göstərmirəm alovumu-közümü.

Gümanım yox, bir şey gəlmir əlimdən,
Qəmim misra-misra düşür dilimdən.
Uzaq düşdüm şəhərimdən, elimdən,
Kimə deyim söhbətimi, sözümü?

Fikrim qalıb torpağında, daşında,
Yel olaydım dağlarının başında.
Sel gücü var gözlərimin yaşında,
Tükənməzdir ürəyimin dözümü.

Bir gün gələr, qürbət eldən qaçaram,
Sevincimdən qanad açıb uçaram.
Dostlarıma ürəyimi açaram,
Yad yanında sındırmaram özümü.

# VAXTI VAR

Sarsılma qarşında uzun olsa yol,
Gedənin qayıdıb dönən vaxtı var!
Alışma hər sözə, dəyanətli ol!
Hər yanan ocağın sönən vaxtı var!

Bəzən ayrılırıq sevsə də ürək,
Bəzən “yox” deyirik, istəməyərək.
Bu bir həqiqətdir, anlamaq gərək,
İnsanın ağlayan, gülən vaxtı var!

Bəni-adəmin heç doymayır gözü,
Doğru olur yalnız mindən bir sözü.
Çağlayan bulağa çevirib üzü,
Zərrənin qədrini bilən vaxtı var!

Namərd at oynatsa ər meydanında,
Həyat alt-üst edər ən son anında.
Çox qılınclar qalıb paslı qınında,
Şahların taxtlardan enən vaxtı var!

Dünyada hər bir kəs verir imtahan,
Qazanmaq çətindir, itirmək asan!
Solsa ümidlərin yenə döz, dayan,
Ağacın bir bəhrə verən vaxtı var!

# YENƏ YOLUM DÜŞDÜ...

Yenə yolum düşdü tanış yerlərə,
Əski xatirələr baş aldı getdi.
Elə bil qayıtdım ötən günlərə,
Keçmiş anılarım məni isitdi.

* * *

Necə olmuşdusa bu yerlər hələ
Yenilik, təzəlik görməmişdilər.
Sanki bugünədək, lap bilə-bilə,
Həsrətlə yolumu gözləmişdilər.

* * *

Aşıb keçdiyimiz möhtəşəm hasar
Sökülüb, əyilib, rəngi bozarıb.
O daş yol, darvaza, qoca çinarlar
Ozünü keçmişdə gizləyib qalıb.

* * *

Bu da qədim bazar, uçulub təmiz,
Uzun daxılların qaralır yeri.
Əvvəlki halından qalmayıb bir iz,
Andırır o qədim xərabələri.

* * *

Qoca park, səndəmi belə qəmlisən?!
Susubdur çağlayan fəvvarələrin.
Kimsəsiz qalalı qəribsəmisən,
Hanı o füsunkar mənzərələrin?

* * *

Xatirimə gəlir, burda bir zaman
Yeriмək olmurdu insan əlindən.
Amma ötən illər verməyib aman,
Bir əsər qalmayıb əzəmətindən.

* * *

...Gedirəm, qəlbimə bir həsrət çöküb,
Əlvida, uşaqlıq xatirələri!
Kövrək duyğuları içimə gömüb,
Sükutda qoyuram yenə sizləri.

* * *

Yaş sınağa çəksə əgər qəlbimi,
Ürəyim dözməsə, bir də qayıtsam,
Bəlkə sevinərəm mən uşaq kimi
O köhnə hasarın yerini tapsam.

# HƏSRƏT

Açıram qapını, qəlbimdə həsrət,
Həyət həmin həyət, eyvan o eyvan.
Bağça da o bağça, amma ki, heyrət!
Hər şey yad görünür baxdığım zaman.

* * *

Nənəm də qəmlidir, asta yeriyir,
Hanı o şuxluğu, o təravəti?...
Öpüb qucaqlayır, “xoş gəldin” deyir,
Ancaq qollarının yoxdur taqəti.

* * *

Gözləri yaşarır baxdıqca bizə,
Saçımı oxşayır titrək əliylə.
Dodağı altında danışır nəsə,
Baş-başa qalanda öz həsrətiylə.

* * *

Bükübdür qəddini sənin xiffətin,
Daha qalmayıbdır o abu-hava.
Sənsiz ona indi yaşamaq çətin,
Yoxluğun yamandır, baba, ay baba!

* * *

İçəri girirəm, sataşır gözüm
Sənin çarpayına, sənin kürsünə.
Güllü balınclardan tanış ətrini
Çəkirəm burnuma mən dönə-dönə.

* * *

Divar saatı da susub, işləmir,
Sənin qəlbinlə bir o da durubdur.
Nənəm də köksünü ötürüb deyir:
“Son dəfə rəhmətlik baban qurubdur”.

* * *

Basaraq bağrına: can, - deyən zaman,
Duyurdum sevginin dərinliyini.
Sənin nəvazişin doğmaydı yaman,
Özün də bilirdin sevildiyini.

* * *

...İndi nə sən varsan, nə də o günlər,
Göz yaşım həsrətə axıb qarışır.
Onsuz da bilirəm hər axşam-səhər
Bu evdə nəfəsin, ruhun dolaşır!

# GƏNCLİYİM GERİ DÖNƏYDİ!

Rəsmlərdən mənə baxan,
Gəncliyim geri dönəydi!
Birdən-birə yoxa çıxan
Gəncliyim geri dönəydi!

Gəzişəydik biz əl-ələ,
Baxışlar gələydi gülə.
Yaşlanırıq ildən-ilə,
Gəncliyim geri dönəydi!

Hanı o bahar çağımız,
Allanaydı yanağımız.
Sən olaydın qonağımız,
Gəncliyim geri dönəydi!

Mənə cizlicə baxaydın,
Qəlbimi oda yaxaydın,
Saçlarıma gül taxaydın.
Gəncliyim geri dönəydi!

Saf duyğular oyanaydı,
Aləm nura boyanaydı,
Zaman durub-dayanaydı,
Gəncliyim geri dönəydi!

# KÖHNƏ DOST

Təkcə sənə ümid bəslərdim, amma,
Sən də məni atıb getdin, köhnə dost!
Əlvida deməyə verməyib aman,
Niyə üz çevirib getdin, köhnə dost!

Qəlbimin sirrini söylərdim sənə,
Doğmadan-doğmaydın, əzizdin mənə.
Əski dost çevrilməz, dedim, düşmənə,
Bax, sən də xəyanət etdin, köhnə dost!

Həsrəti ömrümə sarmadım, ey yar!
Mənim əvəzimə sən verdin qərar!
Gözlərim yenə də tək səni arar,
Qəlbimdə tikantək bitdin, köhnə dost!

Sözlərin könlümə olmuşdu dərman,
Sənsizlik acısı yamandır-yaman!
Bilmirdim, bizi də ayırar zaman...
Yadlar arasında itdin, köhnə dost!

# BİR ŞAİR VAR

*Şair Zakir Təkəliyə ithaf edilib*

Bir şair var bu gün bizdə,
Əyləşibdir süfrəmizdə.
Bir səhv tapır hərəmizdə,
Nə desə sözün düzüdür.

Misraları ilmə-ilmə,
Onu heç də aciz bilmə!
Dodağından qopan kəlmə
Qəlbin alovu-közüdür.

Qonaqları bir-bir süzür,
Sözləri yan-yana düzür,
Cahillərə dodaq büzür,
Gözləri sərraf gözüdür.

"Savadsızam", - deyir özü,
İnanmırıq buna, düzü.
Bilirik, aldadır bizi,
Zakir Təkəli - özüdür.

# BİR TUZAQDA

Sanki rol oynayıram,
Özü də heç çaşmadan.
Nə artıq deməkolmaz,
Nə əskik demək olmaz.
Sərhədimi aşmadan
Bir az sağa gedirəm,
Bir az sola gedirəm.
Amma onu bilirəm -
Hamı tamam başqadır,
Mənsə tamam özgəyəm,
Hamı iş adamıdır,
Mənsə gərək gözləyəm:
Gələnləri qarşıla,
Gedənləri yola sal…
Boş sözləri alqışla,
Elə ayaq üstə qal…
Onunsa vaxtı yoxdur,
Onu buyurmaq olmaz!
Öz qayğıları çoxdur:
İşə gedir, yorulur,
Hələ ali məktəbə
Pul da verib oxuyur.

Nə olsun ki, mən ondan
İyirmi sənə öncə,
O, alkoqol əlində,
Papiros damağında
Küçələri gəzəndə,
Gecə-gündüz oxuyub
Ali məktəb bitirdim?!
Lakin necə oldusa,
Amalımı itirdim.
Mən əhli-müsəlmanam,
Gərək, dözəm, dayanam.
Kafir ayrı, mən ayrı.
Amma görəsən niyə
Qoyanda tərəziyə
Bəxtəvərlik payını
Onunku ağır gəlir.
Bəs onda yaxşı ilə
Yamanın fərqi nədir?
Budurmu mükafatım?
Yeksənəkdir həyatım…
İndi ondan geridəyəm,
Çünki mən bir yerdəyəm,
Çünki mən bir tuzaqda!
…Azadlıqsa uzaqda…

# VƏTƏN BAYATILARI

Bu yerə yollar uzaq,
Gecə düşübdür sazaq.
Şairlərin vətəni
Bizim Qazaxdır, Qazax!

* * *

Küçələri çıraqban,
El-obası firavan,
Soruşsanız: Haradır?
Naxçıvandır, Naxçıvan!

* * *

Unutmaram bu yayı,
Nə ulduzu, nə ayı.
Min dərdin dərmanıdır
Lənkəranımın çayı.

* * *

Qurtarsın qan davası,
Köz bağlasın yarası.
Laçında bir toy vuraq,
Çalaq "Laçın" havası.

* * *

Hanı o şən çağların,
Çiçəkli yaylaqların?
Gözləri yolda qalıb
Kəlbəcərdə dağların.

* * *

Bu yerin suyu qaymaq,
İçdikcə olmur doymaq.
Bu bahar Qarabağı
Gəzəydim oymaq-oymaq!

* * *

Çöl-çəməni, meşəsi,
Laləsi, bənövşəsi.
Mənim üçün cənnətdir
Vətənin hər guşəsi.

# ŞƏHƏRİMİN KÜÇƏLƏRİ

Dar dalanlı, gen qucaqlı
Şəhərimin küçələri.
Həm sirlidir, həm maraqlı
Şəhərimin küçələri.

Qış qurtarıb, yaz gəlibdir,
Səmadan nur ələnibdir,
Gözəllərlə bəzənibdir
Şəhərimin küçələri.

Deyin, hanı ilk baharım,
Gözü yolda qalan yarım?
O günlərdən yadigarım,
Şəhərimin küçələri!

Seyr etdikcə Xəzərimi
Unuduram dərdi-qəmi.
Gözəldir bir gəlin kimi
Şəhərimin küçələri.

Ruhum Bakımı dolaşır...
İftixarım aşıb-daşır.
Sənə nəğmələr yaraşır,
Şəhərimin küçələri!

Doymaq olmur bu vətəndən,
Yaralıyam həsrətindən.
Yola salın, gedirəm mən,
Şəhərimin küçələri!

# YAĞIŞ

Nəfəs-nəfəs buxarlanıb havaya,
Yerə damla-damla qayıdan yağış!
Yüksəkdən nəzər sal bizim obaya,
Varmı o yollarla qayıdan, yağış?

Yaz gələndə çöllərə dost olursan,
Dənizlərə, dəryalara dolursan,
Çiçəklərin ləçəyini yolursan,
Yeri nəfəsiylə soyudan yağiş!

Kaş hər səhər pəncərəmi vuraydın,
Həsrətimin sədasını duyaydın,
Ağlayanda göz yaşımı yuyaydın,
Yoxdur səndən başqa ovudan, yağış.

# MƏN DEDİM Kİ…

Mən dedim ki, arzuları qanad edib uçacağam!
Fələk dedi: çox öyünsən inadını qıracağam!

Mən dedim ki, inadımı çətinliklər qıra bilməz!
Fələk dedi: heç bir qüvvə mənə qarşı dura bilməz!

Mən dedim ki, ümidim var, çalışacam gündüz-gecə,
Qarşımdakı sərhədləri aşacağam bircə-bircə!

Yolum nəki uzun olsa, mən bu yolu keçəcəyəm!
Fələk dedi: heç yorulma, bəxtini mən seçəcəyəm!

# MƏN OYUNCAQ DEYİLƏM!

Mən oyuncaq deyiləm
Mənə evcik qurasan!
Nə vaxt kefin istəsə
Açarımı burasan.
Mən oyuncaq deyiləm
Qutuda saxlayasan!
Yorulanda, bezəndə
Bir bucağa atasan.

# SƏN UŞAQ OLMAMISAN

Sən uşaq olmamısan.
Yaddaşımda qalalı
Böyük kimi düşünüb,
Böyüktək davranmısan.
Sənə ümid ediblər,
Hey səni buyurublar.
Elə səndən küsüblər,
Elə səndən umublar.
Heç boş vaxtın olmayıb
Dəcəlliklər etməyə.
Öyrənmisən tək-tənha
Xəyallarda gəzməyə.
Başqaları ataya,
Anaya naz edəndə
Nazlarına dözmüsən.
Hərdən haqsız deyilən
Sözlərinə dözmüsən.

Yəqin, qibtə etmisən
Çöldə oturanlara,
Qaçdı-tutdu, gizlənpaç,
Beşdaş oynayanlara.
Tum çırtlaya-çırtlaya
Söhbət eləyənlərə,
Yoldaşlarıyla birgə
Gəzməyə gedənlərə…
…Heyif keçən günlərə,
Beləcə yaşlanmısan.
Heyif, keçən günlərdən
Öcünü almamısan.
Görəsən, məhkum idin
Sən böyük doğulmağa?
Yoxsa ki, qoymayıblar
Səni usaq olmağa?

## YENƏ YALAN DANIŞDIN

Yenə yalan danışdın,
Yenə sənə inandım.
Sənin içdiyin andın
Heç dəyəri varmı ki?!
Yalan olar bir, iki.
Daha qalmayıb gücüm.
Sənin yalanların çox…
Yenə aldandığımçün
Mən utandım,
Sənsə yox.

# BİLMƏDİM

Sözümlə, özümlə öyünən adam
Məni xəyanətlə vurdu arxadan.
Dedi ki, ayrılıq keçdi aradan,
Mən də vəfasızam, dözə bilmədim.

Nə qədər gizləsə sirri faş oldu,
Gözümdən sel axdı, sinəm yaş oldu,
Mənim göz yaşıma qəlbi daş oldu.
İstədim söyləyəm sizə, bilmədim.

Mən onu satmadım şöhrətə-şana,
İnsanda üz gərək səhvini dana.
Yalan sözlərindən gəlmişəm cana,
Çatıbdır əlliyə-yüzə, bilmədim.

Dərd-ələm yox etdi iqtidarımı,
Bağçamda qar-şaxta vurdu barımı,
Uçurdu əlimlə qurduqlarımı,
Əvvəlki sahmanla düzə bilmədim.

Düşmənlər duymasın düşüb qan-qada,
Yaraşmaz məndəki mənliyə, ada.
Silərdim, atardım, salmazdım yada,
Arada bağları üzə bilmədim.

# BAHAR, SƏNİ GÖZLƏYİRƏM!

Saya-saya günlərimi,
Mən günəşi səsləyirəm.
Ötürürəm illərimi,
Nisgilimi gizləyirəm.
Bahar, səni gözləyirəm!

Şən misralar yaza-yaza,
Keçsin bu qış, dönsün yaza!
Novruz gəlsin yurdumuza!
Göy səməni bəsləyirəm,
Bahar, səni gözləyirəm!

Buludları qovsun külək,
Çöl-çəmənlər açsın çiçək,
Gəl, yenə də deyək-gülək!
Al şəfəqlər istəyirəm!
Bahar, səni gözləyirəm!

Qoy açılsın göyün üzü,
Qalmasın şaxtanın izi.
Qoşa gəzək elimizi!
Vətənimi özləyirəm!
Bahar, səni gözləyirəm!

# TANIYARAM

Məhəbbəti tanıyaram
Qəlbimdəki təlatümdən,
Sevincimdən, fərəhimdən.

Səadəti tanıyaram
Gətirdiyi həvəsindən,
Bahar dolu nəfəsindən.

Mən nifrəti tanıyaram
Şimşək çaxan gözlərimdən,
Alov saçan sözlərimdən.

Mən həsrəti tanıyaram
Nisgilimdən, kədərimdən,
Sənsiz keçən günlərimdən...

# QIYMA , ƏCƏL!

*Gülnarə Məmmədquliyevanın unudulmaz xatirəsinə ithaf edilib*

Sən bu ömrə qıyma, əcəl!
Hələ təzə, hələ tərdir.
Qıyılası yamanlar gör nə qədərdir...
Səbr et, dayan!
Qırılacaq arzuları sən gəlincə.
O ki, çiçək qədər incə,
O ki, həyat qədər gözəl!
Sən bu ömrə qıyma, əcəl!

Möcüzədir barmaqları,
Düzəltdiyi muncuqları,
Öz əliylə işlədiyi yaylıqları.
Nələr, nələr…
Yoldaşları toplaşıblar otağına,
Sığışmayır yatağına.
Hələ şıltaq, hələ dəcəl!
Sən bu ömrə qıyma, əcəl!

Arzusuydu həkim ola,
Ürəklərə ümid sala,
Hər könüldə, hər yaddaşda adı qala.
Qismətə bax…
Yaddaşına iz salmamış sevgi sözü
Vaxt qalmayıb, gedir özü…
Gül yanaqlar olub xəzəl!
Sən bu ömrə qıyma, əcəl!

İnsanın əlindən gələ,
Dərdinə bir əlac bilə,
Onun yenə əvvəlkitək üzü gülə!
Amma heyhat...
Qış ötüncə gəlməyəcək bir də yazı,
Qismətiymiş ömrün azı.
Ürəklərə dağ çəkmə, gəl!
Sən bu ömrə qıyma, əcəl!
Sən bu ömrə qıyma, əcəl!

# SƏNİ BİR DƏ GÖRMƏK ÜÇÜN

Ahım ərşə duman olur
Səni bir də görmək üçün.
Gözümə qanlı yaş dolur,
Səni bir də görmək üçün.

Həsrət yaman, kədər acı,
Hardasan, başımın tacı?
Göynəyir burnumun ucu,
Səni bir də görmək üçün.

Yarğan uca, dərə dərin,
Torpaq soyuq, yerin sərin.
Niyə sənə çatmır əlim,
Səni bir də görmək üçün?

Zülmət yollardan keçəydim,
Özümə ölüm seçəydim,
Mən də dünyadan köcəydim,
Səni bir də görmək üçün.

1995
Qazax

# YOXLUĞUNLA BARIŞMARAM MƏN!

*Qoca Mustafaoğlunun xatirəsinə*
*ithaf edirəm*

Sən deyirdin: dərdin alım, - dərdim sən oldun,
Hər tərəfə kölgə salan ağacdın – soldun,
Gəncliyini yaşamadan tez yaşa doldun.
Ay dostlarım, nə dinib, nə danışmaram mən.
Ata, sənin yoxluğunla barışmaram, mən!

Sən getdiyin səltənətin qapısı bağlı,
Balan indi səndən ayrı, sinəsi dağlı.
Mən olmuşam bir divanə - ata soraqlı,
“Can-can” deyən özgələrə qarışmaram mən.
Ata, sənin yoxluğunla barışmaram, mən!

Dünyaları alt-üst edən, ay əcəl zalım,
Quruyubdur göz yaşlarım, qalmayıb halım,
Görünməyir gözlərimə dövlətim-malım,
İllər keçsə, bu həsrətə alışmaram mən.
Ata, sənin yoxluğunla barışmaram, mən!

2007
Gürcüstan

# GÖTÜR MƏNİ!

*İthafnamə*

Ömür dostum, gül-çiçəkli
Bir diyara götür məni.
İnsanları saf ürəkli
Bir diyara götür məni.

Bağçaların solmadığı,
Yamanların qalmadığı,
Xəyanətin olmadığı
Bir diyara götur məni.

Mən həsrətəm bir bahara,
Qəribəm, çəkiblər dara,
Gəl üz tutaq bu yollara,
Bir diyara götür məni.

Havası pak, suyu mərcan,
"Can" deyəndə eşidim "can",
Bir cənnət var - Azərbaycan!
O diyara götür məni!

Bu bir arzu, bu bir niyyət:
Kiçik otaq, kiçik həyət.
Olmasın sənə əziyyət,
O diyara götür məni.

Afaqam, düşmüşəm uzaq,
Qəlbimi vurubdur sazaq.
Dostlara bir namə yazaq,
O diyara götür məni.

# BƏLKƏ BİR GÜN

# İZİN VER

İzin ver, sevgilim, bir izin olum,
Ardınca sürünüm sən görməyəndə.
Bizi ayırmasin uzanan yollar,
Qoy mən də dönməyim sən dönməyəndə.

* * *

İzin ver, sevgilim, bir telin olum,
Əllərin hər dəfə oxşasın məni.
Saçına qarışım, sarılım sənə,
Çəkim nəfəsimə nəfis ətrini.

* * *

İzin ver, sevgilim, bir sirrin olum,
O sirr ki, hamıdan gizləməlisən.
Qoruyub müqəddəs bir məşəl kimi
Qəlbinin içində gizlə məni sən.

* * *

İzin ver, sevgilim, bir fikrin olum,
Səni də özümlə alım aparım,
Bircə an da olsa bəs edər mənə,
Yenə o günləri geri qaytarım.

# SƏN ELƏ BİLİRDİN

Sən elə bilirdin sevmirəm səni,
Mən də istəyirdim elə biləsən.
Olub-keçənləri xatirə kimi
Bir gün yada salıb gülə biləsən.

* * *

Sən elə bilirdin sevmirəm səni
Bil ki, hər baxışım məhəbbət idi.
Üzünü yaxından görə bilməyim
Mənimçün ən böyük səadət idi.

* * *

Sən elə bilirdin sevmirəm səni,
Mən də istəyirdim məğrur dayanım.
Amma ki, yeganə sevincim idi
Səninlə bir keçən dəqiqəm, anım.

* * *

Sən elə bilirdin sevmirəm səni?
Heyif, ürəyimi aça bilmədim!
Min kəs toplayaraq cəsarətimi
Mən səni sevirəm,- demək istədim.

* * *

Bilmirdin, yazıram mən yaddaşıma
Sənin gülüşünü, sənin səsini.
Gizlicə-gizlicə sevirdim, amma
Sən elə bilirdin sevmirəm səni.

# NEYLƏYƏCƏKSƏN?

Səni öz əlimlə uçurdum, gülüm,
Bəlkə də bir daha dönməyəcəksən!
Özün uzaqlara getsən də, düşün,
Ürəyin məndədir, neyləyəcəksən?

Bir gün kimsə məni sorarsa səndən,
Arayıb taparsan öz ürəyindən.
İstərəm: “Ömrümə qayıt!” - deyim mən,
Amma gecikmişəm, gəlməyəcəksən.

Sən mənə: “Vəfasız oldun!” – desən də,
“Artıq mənim üçün oldün!” – desən də,
“Səni yaddaşımdan sildim!” – desən də,
Bilirəm, qəlbindən silməyəcəksən.

Uçan quş kimidir ömürdə hər an,
Mənə lazım deyil nə şöhrət, nə şan.
Buraxsan əlimi, daha heç zaman
Kimləyəm, hardayam bilməyəcəksən.

Sənsiz zülmətlərə düşdü gündüzüm,
Sənsiz olmaz oldu söhbətim-sözüm.
Ey mənim ömrümə doğan ulduzum!
Mənimçün heç zaman sönməyəcəksən!

# BARIŞACAQMI?

Bu gün məndən küsüb getdi sevgilim,
Ürək bu həsrətə alışacaqmı?
Qəlbinə dəymişəm, yanaydı dilim!
Görəsən bir daha barışacaqmı?

Hüsnü-camalına heyran olub el,
Bu nə nazü-qəmzə, bu nə fəndi-fel?
Qoşa addımlasaq, əssə sərin yel,
Saçları saçıma qarışacaqmı?

Mən onu sevmişəm on beş yaşında,
Gözlərim qalıbdır hilal qaşında,
Anasından gizli, bulaq başında,
Yenə də mənimlə danışacaqmı?

# BİR SAHİL BAĞI

İlk bahar çağı,
Bir sahil bağı
Güllər arasında itdi.

İki gənc ürək,
Çox ürkək-ürkək,
Sevişib əhd-peyman etdi.

Çinar kölgəsində,
Əlləri əlində,
Düşündülər: bu qismətdi.

Danışdı gözlər,
Yandı bənizlər,
Busələr tellərdə itdi.

Bir gün əsdi yellər,
Dəyişdi fəsillər,
Bu məhəbbət burda bitdi.

Deməyin, az oldu!
Qiş keşdi, yaz oldu,
O anlar bir ömrə yetdi.

# GEDİRƏM DAHA

Keçmiş günlərimə eyləyib vida,
Qəlbimdə bir həsrət, gedirəm daha!
Salma ürəyinə, söylə "əlvida!"
Bitdi bu məhəbbət, gedirəm daha!

Qəlbə "unut" demək çətindir, çətin!
Sonu görünməyir bunca zillətin...
Qədrini bilmədin bu məhəbbətin,
Arama sədaqət, gedirəm daha!

Xatirən yadigar qalacaq mənə,
Mənsə ürəyimi vermişdim sənə!
Bir oyun oynadı bu həyat yenə...
Ummuram səadət, gedirəm daha!

# DEYİLMİ?!

Məni sevmək sənə düşdü,
Məhəbbət zülüm deyilmi?!
Yollarımız ayrı düşdü,
Ayrılıq ölüm deyilmi?!

Xoş arzular oldu yalan,
Satammıram, yox dərd alan.
Səni məndən ayrı salan
Yanası dilim deyilmi?!

Həsrət tutub yollarımı,
Qəm bağlayıb qollarımı.
Şaxta vurub eşq bağımı,
Saralan gülüm deyilmi?!

Gündüzlərim olub qara,
Belə olma, məni ara!
Sənsiz məni çəkən dara
Aylarım, ilim deyilmi?

# ƏGƏR SƏN İSTƏSƏYDİN

Əgər sən istəsəydin,
Yanağimı gecələr göz yaşları yumazdı,
Bu talenin oyunu bizi ayrı salmazdı,
Soyuq baxışlarından ürəyim soyumazdı,
Eşqimiz də solmazdı
Əgər sən istəsəydin.

Saçına çələng düzüb, tellərini hörərdim,
Qabağında diz çöküb əllərini öpərdim,
Bir körpə uşaq kimi mən arxanca gəzərdim,
Ta ölüncə sevərdim
Əgər sən istəsəydin.

Sən günəşim olardın, çəkilərdi zülmətim,
Gündən-günə daha da artardı məhəbbətim,
Bircə xoş gülüşündən qalmazdı heç bir qəmim,
Sən, ey könül həmdəmim,
Əgər sən istəsəydin!
Əgər sən istəsəydin!

# NİYƏ TƏLƏSİRDİM ?

Mən ki, gözlərinə baxa bilmirdim,
Niyə tələsirdim səni görməyə?
Naz edib qəlbini yaxa bilmirdim,
Niyə tələsirdim səni görməyə?

Mehriban səsinə etmişdim adət,
Mənimçün yox idi başqa səadət.
Bilirdim: qarşıda sonsuz bir həsrət...
Elə tələsirdim səni görməyə!

Gecələr qəlbimə bir yük olurdu,
Könlümə ayrılıq qəmi dolurdu,
Ürəyim çırpınıb tel-tel olurdu,
Yaman tələsirdim səni görməyə.

Tarım çəkilirdi qəlbimin simi,
Gözüm gözlərinə sataşan kimi.
Aça da bilmirdim mən öz sirrimi,
Amma tələsirdim səni görməyə.

Nə bir söz tapırdım səndən soruşam,
Nə də bir bəhanə - yanında duram.
İndi ürəyimdən mən soruşuram:
Niyə tələsirdim səni görməyə?

# ƏLVİDA DEDİN

Sən bu gün ilk dəfə “əlvida” dedin...
Bu sözün həkk oldu qəm yaddaşıma.
Niyə gözlərimə baxa bilmədin?
“Sağ ol, sabahadək!” deyərdin amma.

* * *

Sən bu gün ilk dəfə “əlvida” dedin...
Boşluqda buraxdın şaşqın, çarəsiz.
Qəlbim parçalandı, sənsə bilmədin
Bir anda yox oldu gələcəyimiz.

* * *

Bir sözlə bir ömrü dəyişmək asan,
Eşq üçün özünü dəyişmək çətin.
Artıq bizim üçün dayandı zaman –
Sən bu gün ilk dəfə “əlvida” dedin...

# GƏLSƏN...

Mən günləri sənsizlikdə ötürürəm,
Mən özümü səssizlikdə itirirəm.
And içmişdik dözəcəyik bu həsrətə,
And içmişdik biz bu eşqə, məhəbbətə.
Söz vermişdik – unutmayaq, - unutmadım,
Bəs nə oldu, illər keçdi, qayıtmadın?
Gəlsən, sönən ümidimə od salaram.
Ümid olsa mən hər şeyi,
Mən hər şeyi bacararam.

Tükənərsə ürəyimdə arzularım,
Bağlanarsa geri dönməyə yollarım,
Ruhum uçub tanrılarla əlləşərsə,
Başım üstdə sıx buludlar birləşərsə,
Kövrələrsə qəlbim körpə uşaq kimi,
Tapammasam bu dünyada öz yerimi,
Gəlsən, yeni bir güc alıb canlanaram.
Məhəbbətə, sədaqətə
Ölənədək inanaram.

Mən şamına həsrət qalan pərvanəyəm,
Mən Leylayam, eşq əlindən divanəyəm.
Bir buludam, boşalmasam şimşək ollam,
Bir mehəm ki, coşdursalar külək ollam.
Boz çöllərin çılpaq qalan ormanıyam,
Çökəklərin yorğun düşən dumanıyam,
Yollarını qarış-qarış dolanaram.
Gəlsən, səndən mən bir daha
Ayrılmaram, ayrılmaram!

# BU MƏHƏBBƏT

Bu məhəbbət itə bilməz!
Qəlbimizdə izi vardır.
Bu məhəbbət saf-təmizdir,
Zirvələrdə qalan qardır.

* * *

Bu məhəbbət duyğuların
Titrəyən incə simidir.
Bu məhəbbət gələcəyin
Sarsılmayan bir himidir.

* * *

Biz bu eşqi yaratmışıq,
Qədrini də bilək gərək.
Yaratmışıq sətir-sətir
Barmağımız titrəyərək.

* * *

Yorğunluqdan qızarardı
Səhər çağı gözlərimiz.
Amma yenə tükənməzdi
Ürəkdəki sözlərimiz.

* * *

Unutmayaq o yuxusuz
Gecələri, sabahları.
İncitməyək qəlbimizi
Yada salıb günahları.

* * *

Əlini ver əllərimə,
Yaxın qotmayaq həsrəti.
Ozümüzü itirərik -
İtirsək bu məhəbbəti.

# DEYİR ...

Mən bir ürəksizə könül vermişəm,
Lazımsız bilibdir, atıbdır oda.
Deyir: unutmuşam, deyir silmişəm!
O şirin anları salmayır yada.

* * *

Dilimdən düşməyir zalımın adı,
Bu sevən ruhumun sınıb qanadı.
Məni dara çəkən o insafsızın
Nə səbri tükənir, nə də inadı.

* * *

Deyir: qəlbim mənim dönübdür daşa.
Deyir: baxmayacam gözündə yaşa,
Aldanma keçmişin xəyallarıyla,
Mən sənsiz yaşayım, sən mənsiz yaşa!

# SEVƏN ZAMAN

Təklik məni üzür yaman,
Ən xoş soz də kömək olmur.
Riyakarlıq, sevən zaman,
Lazım olmur, gərək olmur.
Ayrı qalmaq deyil asan,
Nədən bunu demək olmur?

# BİR GÜN

***Bu şeirə bəstələnmiş mahnı 2006-cı ildə Aygün Kazımovanın ifasında səslənib***

Darıxma, sevgilim, bitər bu həsrət,
Ayrı yollarımız birləşər bir gün.
Yenə tapar bizi sevgi, səadət,
Rüzgarlar səmtini dəyişər bir gün.

Bu necə taledir, bu necə yazı?
Bilinmir ömrümün payızı, yazı.
Səbr et, çoxu gedib, qalıbdır azı,
Yəqin qismət bizlə barışar bir gün.

Ayrılıq bitəcək uzun olsa da,
Həsrət qəlbimizdə yuva salsa da.
Hər gün gözlərimiz yolda qalsa da,
Yorğun baxışımız birləşər bir gün.

# TƏLƏS

Qəlbim həsrətindən qubar bağlasa,
Sevgilim, yanıma gəlməyə tələs!
Dolmuş bulud kimi birdən ağlasam,
Bu göz yaşlarımı silməyə tələs!

Sən mənim ömrümdə ən xoş təranə,
Sənsiz könül evim sanki viranə.
Nə olar, dərdimə qalma biganə,
Bu dərdi mənimlə bölməyə tələs!

Biz ayrı düşəli hicran kam alıb,
Sevda yollarında izimiz qalıb.
O xoşbəxt günləri yadına salıb
Sirrimi-sözümü bilməyə tələs!

Bir kərə çağırsan ollam yanında,
Gəl qədrini bilək bircə anın da.
Ömür keçib-gedər göz qırpımında,
Gecikmə, ürəkdən sevməyə tələs!

# DÖZMƏRƏM

Sən – ömrümə doğan günəş,
Qəlbimdə yanan atəş,
Ey mənim göz bəbəyim!
Sən – bəxtimə düşən payım,
Mənim ulduzum, ayım,
Unuda bilmədiyim.
Mən kiməm – bir aşiqin.
Sənsə mənim ürəyim.
Sənə sevgilim deyim,
Yoxsa mələyim deyim?
Mən bütün keçmişimi
Unudaram səninçün,
Ey mənim gələcəyim!
Sənsiz mən bir damlayam,
Səninlə – coşqun bir çay.
Sənsiz – boranlı qışam,
Səninlə – günəşli yay.
Getsən, tükənər ömrüm.
Tükənər yoxsan deyə.
Mənə qıyma, gəl, gülüm,
Dözmərəm sənsizliyə.

## ANLASAN ARTIQ

Mən çox yalvarırdım, tanrıma üz tutub,
Bilmirdim, sevgilim sevməkdən yorulub,
Unudub eşqini, əhdini unudub.
Mənsə unutmaram, anlasan artıq!

Bu eşq bir yuxudur, bu eşq bir yalandır,
Qəlb evim viranə, ümidim talandır.
Bu könül yarası ömürlük qalandır,
Səni unutmaram, anlasan artıq!

Mən sənin yolunda qatlandım nələrə,
Eşqimi kül edib sovurdun yellərə,
And olsun sevgimə, and olsun göylərə,
Səni unutmaram, anlasan artıq!

# AYIRIR BİZİ

Ay əzizim, mehribanım,
Bu həsrət ayırır bizi.
Sənə bağlı könlüm, canım,
Bircə sədd ayırır bizi.

O gün sənə rast gələrək
İlk baxışdan sevdi ürək.
Tanrımız olsa da kömək,
Bir namərd ayırır bizi.

Ruhum uçur qucağına,
Yanır eşqin fərağına,
Heyif ömrün bu çağına,
Kəm qismət ayırır bizi.

2005
Moskva

# ÖZÜMƏ QAYTAR

Sən mənim sevgimi özümə qaytar,
Neçə ki, yandırıb kül etməmisən.
Mənim ürəyimdən sən getməmisən,
Getsən, həsrətini özünlə apar.
Getsən, sakitcə get, demə: gələrəm,
Yoxsa mən yenə də yol gözləyərəm.
Azad et vədlərdən mənim qəlbimi,
Çünki bu yuxudan ayılmalıyam.
Səni sevdiyimi unutmalıyam,
Sən də məni unut, bir xəyal kimi.

# DEYİRLƏR...

Daha əfv etmərəm, incimə, gülüm,
Qürurum qoymaz ki, əyiləm sənə.
Qürurum qoymaz ki, geriyə dönüm
Səni sevsəm belə dəlicəsinə.

* * *

Getsən gözlərimdən, sevsən birini,
Yanından sakitcə uzaqlaşaram.
Heç kim, sən özün də anlamazsan ki,
Yaşayıb yanaram, yanıb yaşaram.

* * *

Yaşlar gözlərimdən axsa da yerə,
Səni ürəyimdən silərəm səssiz.
Qayıdıb dönərəm bizim yerlərə
Bu dəfə tək-tənha, bu dəfə sənsiz.

* * *

Deyirlər, ürəyə hökm etmək olmaz,
Mənsə qəlbimə də hökm edərəm, bil!
Neçə yerə bölüb sədəqə kimi
Payladığın sevgi gərəyim deyil.

# DÖN

Yollarımız ayrı düşüb...
Sənlə bir də görüşməyə yoxdur ümüd...
Nədən ötrü gəlmişəm ki, bu dünyaya?
Sənsiz keçən günlərimi saya-saya,
mən nə qədər yaşayacam?
Həsrət yükü yaman ağır!
Nə vaxtadək daşıyacam?
Dön, ürəyim! Dön, sevgilim!
Gəl ömrümə!
Gəl ki, bitsin bu nisgilim!

# SEV

Məni istər gizli, istərsə aşkar,
Fikrində, qəlbində, ürəyində sev!
Bitsin yaşadığım bunca intizar,
Mənimdir ruhun da, ürəyin də, sev!

Soyuq sözlərimdən küsüb incisən,
Eşqimlə könlünü alacağam mən.
Sevdadan usanıb, “yoruldum” desən,
Yenə de arzunda, diləyində sev!

Gəl, gülüm, inanaq gələcək günə,
Arzumuz qarışıb biri-birinə.
Bizə nəğmə qoşsun küləklər, yenə!
Eşqi var o əsən küləyin də, sev!

Sən getmə, gen dünya mənə dar olar!
Getmə, həsrətini qoyma yadigar!
Sanma ki, bir qüvvə bizi ayırar,
Yetməz buna gücü fələyin də, sev!

# GÜNAHIM VAR

Ay sevgilim, mən səni canımdan çox sevirəm,
Sənlə keçən günlərin həsrətini çəkirəm,
Gündüzlər kölgə kimi mən arxanca gəzirəm,
Bir şirin xəyal olub yuxuna da gəlimmi?

Mən ki, sənin yolunda odlara galanmışam,
Bir körpə uşaq kimi başına dolanmışam,
İtirmişəm özümü, ruhumla talanmışam,
Sənə peşkəş eləyib gəlbimi də verimmi?

Unutduğun o gündən yoxdu mənim məkanım,
Susub qəmli bülbülüm, qırılıbdı kamanım,
Həsrətinə dözmürəm, al, qurtarsın bu canım,
Bilirəm, günahım var, amma yalnız mənimmi?

Hicran geri çəkilsə, sevgililər qovuşsa,
Çayın ayrı qolları bir məcrada buluşsa,
Qoşa yanan ulduzlar məndən səni soruşsa,
Bu vəfasız dünyada tək qalmışam, deyimmi?

# GEDİRƏM...

Gəl mənə söyləmə: “Sevirəm səni!”
Mən ki, bu sevgiyə cavab vermədim.
Heç kəs yaza bilməz öz taleyini...
Mən sənə “sevirəm” deyə bilmədim.

* * *

Gəl mənə söyləmə: sevirəm səni!
Bu sevgi donacaq qarda, sazaqda.
Nə edim, qismətim öz əlimdəmi?
Canım yanındadır, özüm uzaqda.

* * *

Ayrılmaq asanmı? Düşünmə belə!
Ayrılmaq – nəfəssiz qalmaqdan çətin!
Sənsiz dəqiqələr dönsə də ilə,
Məni yaşadacaq bu məhəbbətin.

* * *

Gedirəm, yazaraq mən bu sözləri,
Əllərim titrəyir, tez-tez çaşıram.
Gedirəm, qəlbimdə həsrət izləri...
Məktubda səninlə vidalaşıram.

* * *

Bitirə bilmirəm, axı nə edim?!
Son sətir son görüş olacaq bizə.
"Əlvida" yazmağa gəlməyir əlim,
Biz günah edirik bir-birimizə.

* * *

Qorxuram, göz-gözə gəlsək səninlə
Yenidən yaşayım hər bir anımı.
Bütün sevincimlə, bütün qəmimlə
Atım qollarına yorğun canımı.

* * *

Gedirəm, sən unut! Yox-yox, unutma!
Yəqin görüşərik yenə bir zaman...
O keçən günlərə daha qayıtma,
Amma ürəyində yaşayım hər an!

# DÜŞÜNMƏ MƏNİ

Mən sənin ömrünə həsrət gətirdim,
Əlvida, sevgilim, düşünmə məni!
Özüm bilə-bilə səni itirdim,
Əlvida, sevgilim, düşünmə məni!

Mən heç "olmamışam"! Unutmalısan!
Qayğısız günlərə qayıtmalısan!
Bu yükü çiynindən sən atmalısan!
Əlvida, sevgilim, düşünmə məni!

Sorma: "Sevirsənmi?" Deyə bilmərəm...
Mən sənin ömrünə gələ bilmərəm,
Nə də ürəyimdən silə bilmərəm.
Əlvida, sevgilim, düşünmə məni!

Hardasan, yanımda olasan, yenə!
İstərəm ki, acam qəlbimi sənə.
Amma söyləyirəm mən dönə-dönə:
Əlvida, sevgilim, düşünmə məni!

Ürək səni sevdi, sənə isindi,
Yadigar qalası sözün, səsindi.
Təki sən xoşbəxt ol, mənim bəsimdi!
Əlvida, sevgilim, düşünmə məni!

“Səni itirmərəm”, - dedin, and içib,
Dedin ki, ürəyim tək səni seçib.
İndi bu vədlərdən çox zaman keçib...
Əlvida, sevgilim, düşünmə məni!

Soylədim: “Ömrümə gecikdin bir az”,
Sən dedin:”Sevməyin zamanı olmaz!”
Amma ayrılırıq gəlməmiş bu yaz,
Əlvida, sevgilim, düşünmə məni!

Demə vəfasızam, xəyanətim var!
İsmətim, qürurum, dəyanətim var!
Unutma, səndə bir əmanətim var!
Əlvida, sevgilim, düşünmə məni!

Yazma mənim üçün bu qəmli şeiri,
Bir söz vermişəm mən, almaram geri.
İndi dağıtma gəl sən göyü-yeri,
Əlvida, sevgilim, düşünmə məni!

Sənsizlik bağıma xəzan tez düşər,
Ağarar saçlarım, illər ötüşər.
Peşman olsam belə, de, nə dəyişər?
Əlvida, sevgilim, düşünmə məni!

Qışdan çıxmayacaq bizim sevgimiz,
Birgə vurmayacaq ürəklərimiz.
Yolumuz başqadır, ayrılırıq biz...
Əlvida, sevgilim, düşünmə məni!

# SEVİRƏM SƏNİ

Görüncə çevirsəm üzümü yana,
Sanma biganəyəm, sevirəm səni!
Arxanca baxıram mən yana-yana,
Ahu-zəbanəyəm, sevirəm səni!

Səsinə həsrətəm, üzülür canım,
Sonsuzluğa dönüb dəqiqəm, anım.
Sən məni oduna yandıran şamım,
Mənsə pərvanəyəm, sevirəm səni!

Eşqimin aləmdə bənzəri yoxdur!
Gedişin sinəmə vurduğun oxdur!
Sevib-sevilənlər dünyada çoxdur,
Mənsə yeganəyəm, sevirəm səni!

Mən oldum kölgətək səni izləyən,
Gəlmirəm, - desən də, yenə gözləyən.
Tənha gecələri səni səsləyən
Qəmli təranəyəm, sevirəm səni!

Məhəbbət həyatdır, yaşadır bizi,
Silinməz heç zaman qəlbimdən izi.
Ayrılıq bitirdi hər ikimizi,
Tərki-zəmanəyəm, sevirəm səni!

Sənsiz gələn bahar bənzəyər qışa,
Göz yaşım dönəcək yağan yağışa.
Məni həsrət qoydun bir xoş baxışa,
Qəlbi viranəyəm, sevirəm səni!

Ağlım: “bu sevdanı unudaq”, - deyir,
Yaddaşım: “yanına qayıdaq”, - deyir,
Ürəyim qəmlidir, “ağlayaq”, - deyir,
Dəli-divanəyəm, sevirəm səni!

# BƏLKƏ BİR  GÜN...

Bağlamışam ürəyimin hər guşəsin,
sevgi girə bilməsin...
Silmişəm ki, göz yaşımın hər zərrəsin,
kimsə görə bilməsin...
Unudarsam ötənləri – dərd azalar.
İstəmirəm unudam!
Bəlkə bir gün yenə onu yada salıb
o günlərə qayıdam...

# MƏN DƏ DEDİM UNUDARAM...

Mən də dedim unudaram
sənin kimi bircə günə:
Sözlərini, gözlərini,
əllərinin istisini...
Bacarmadım!
Mən də dedim unudaram
sənin kimi bircə günə:
O çağları, o anları,
şirin-şirin xəyalları...
Bacarmadım!
Sən ki, mənə öyrətmişdin
sevməyi də,
həsrətinə dözməyi də.
Öyrətmişdin gülməyi də,
göz yaşımı silməyi də.
Unutmağı öyrətmədin, axı, nədən?
Ürəyimi bu göynədən
acıları atmaq üçün,
bir hüzura çatmaq üçün
çalışıram dönə-dönə.
İstəyirəm silim səni ürəyimdən
sənin kimi, bircə günə...
Yandıraraq körpüləri
yol qoymadın keçmişimə qayıtmağa.
Ay insafsız!
Məhəbbətim imkan vermir unutmağa!
Unudarsam səni, sanki
itirəcəm özlüyümü, mənliyimi.
Zaman keçir...
Anlayıram: səni hər gün
əvvəlkindən daha artıq sevdiyimi!

## SEVMƏ DAHA!

Şirin anlar ötüb getdi,
Bu zamansız sevda bitdi.
O aldatdı, günah etdi,
Sən də batma bu günaha!
Ürək, onu sevmə daha!

Məni eşqə salan oldu,
Arzularım talan oldu,
Nə dedisə yalan oldu,
Andlarını satdı baha!
Ürək, onu sevmə daha!

Dedi: qəlbimin parası,
Dedi: gözümün qarası.
Sağalarmı eşq yarası,
Gündən-günə yaxa-yaxa?
Ürək, onu sevmə daha!

Yerini tutmayar kimsə!
Çəkdiyim dərdləri bilsə!
Bir də həyatıma dönsə,
Gözlərimə baxa-baxa,
Ürək, onu sevmə daha!

Sevmişdim, bunu danmaram!
Bu odda bir də yanmaram!
Şahid olsam, inanmaram
Sinəsindən qopan aha!
Ürək, onu sevmə daha!

Unut olub keçənləri!
Bir yuxu bil ötənləri!
Kim qaytarar gedənləri?
Səni and versə Allaha,
Ürək, onu sevmə daha!

Gəl, əlləşmə dərdlə, qəmlə!
Belə susma, ağla, inlə!
Bir dəfə də məni dinlə,
Sevinclə bax hər sabaha!
Ürək, onu sevmə daha!

# BAĞIŞLAMARAM

Bizi ayırmısan, daha qəm yemə,
Artıq rahat uyu, uyuya bilsən!
Sevgi sənə yaddır, sevirəm demə,
Nifrət görəcəksən qarşıma gəlsən!

Yalanın bitirdi hər ikimizi,
Onsuz bu dünyada xoşbəxt olmaram.
Batmısan günaha ayırıb bizi,
Səni ömrüm boyu bağışlamaram!

Nə etdin, neylədin, nə söylədinsə,
Onu ürəyimdən qoparammadım.
Kaş ki, etdiklərin qarşına gəlsə!...
Nə yaxşı, heç zaman sənin olmadım!

Mən ki, sevdiyimə arzu dilərəm:
Hər yerdə, hər zaman bəxtiyar olsun!
Nə sevgi ummaram, nə də enmərəm!
Təki tanrı ona hər an yar olsun!

Allaha yalvar ki, əfv etsin səni,
Çünki günahların böyükdür yaman!
Bacarsan geriyə qaytar kedəni...
Amma ki, geriyə dönməyir zaman.

# İNANMA

Bir gün, unutmuşam, desələr sənə,
Gözümə baxmamış gözün, inanma!
Həsrət şərabını versələr sənə,
Yenə seç əyridən düzü, inanma!

Mən səndən sevgimi gizlətmədim heç,
Qırsam da qəlbini günahımdan keç.
Ya çılğın eşqimiz, ya ayrılıq! Seç!
Yerimi verməyər yüzü, inanma!

Bilirəm, bu sevda zamansız oldu,
Dostlar düşməndən də amansız oldu!
Desələr: "O, sənə vəfasız oldu!"
Yalandır onların sözü, inanma!

Qısqanclıq əlindən odda yansalar,
Səni sevdiyimi səndən dansalar,
Bu təmiz eşqimi oyun sansalar,
İnanma, sevgilim, özun inanma!

## SEVDİM SƏNİ

Gözlərinə baxa-baxa
mən bir ömür yaşamaqçün sevdim səni.
Ayrılmaqçün sevmədim ki...
Yalnız mənim olduğunu,
necə yaşa dolduğunu izləməkçün sevdim səni.
İtirməkçün sevmədim ki...
Sevdim səni unudaraq dərdi, qəmi.
Çəkə-çəkə həsrətini,
xəyallarda tutdum, gülüm, əllərini...
Hər an, hər gün
sadiq qalıb öz sevgimə,
sarıb səni ürəyimə
nə düşündüm... Bir bilsəydin...
Bilmədin ki...
Əl uzadıb vüsalına qovuşmaqçün sevdim səni.
Unutmaqçün sevmədim ki...

## HEYİF Kİ...

Həsrət əcəl deyil, ala canımı...
Heyif ki, sənsiz də yaşayacağam!
Eşqinə həsr edib hər bir anımı,
Adını qəlbimdə daşıyacağam!

# GİLEY

Üç gün bundan əvvəl sevirdin məni,
Başqa birisini nə tez sevmisən?
O ülvi məhəbbət bu imiş yəni?
Ötəri bir hissi sevgi bilmisən...

Sevən sevdiyini baş tacı bilər,
Lazımsa uğrunda canını verər,
Ona söz deyəni dünyadan silər,
Sənsə həyatından məni silmisən?!

Ürəyin soyusun! Bir az da dözüm!
Vaxt keçər, yandırmaz alovum-közüm.
Bilirəm, acıdır sənə hər sözüm,
Odur ki, özgəyə könül vermisən.

Qıyma ki, bu dostluq davayla bitsin!
Qıyma ki, bu hörmət yox olub itsin!
Qoymursan qəlbimin acısı getsin,
Məzəmmət etməyə sən də gəlmisən.

# GÖRÜŞƏNƏDƏK

Ardınca çatılmaz ötən illərin,
Səadət qısadır, bir gün bitəcək.
Nə sən məni üzmə, nə də mən səni,
Qəlbini sızlatma, her şey keçəcək!

* * *

Bilirdim, xoş günlər çox olmayacaq,
Əzəldən məhkumdu bizim sevdamız.
Xəyallar tükənib yox olmayacaq…
Sağalarmı bir gün könül yaramız?

* * *

Bəlkə həyatından gedim əbədi?
Bəlkə də qayıdaq keçmişimizə?
Bütün şirin sözlər xatirimdədi,
Niyə zülm edirik bir-birimizə?

* * *

Uçuram arzumun arxasınca mən,
Yəqin bu axtarış uzun çəkəcək.
Qayıdaram bir gün, məni gözləsən,
Hələlik, sevgilim, görüşənədək!

# DEDİN...

Sənə ürəyimi açdım gümansız,
“Qəlbində nələr var bilirəm”, - dedin.
“Mən də bu sevdaya düşüb amansız,
Sənə vurulmuşam, sevirəm!” - dedin.

Uçmağa olmadı bircə qanadım,
Bu sevgi önündə sındı inadım.
“İndi sənə bağlı namusum, adım,
Yollarımı gözlə, gəlirəm!” - dedin.

Yazdın taleyimi izin almadan,
Bu eşq unudulmaz izi qalmadan!
Susa bilməzdinmi, oda salmadan?
“Mən sənin dərdindən ölürəm” - dedin?!

Bir zaman olmuşdu dünya mənə yad,
Sənin gəlişinlə dəyişdi həyat!
Sandım, ayrılmarıq, amma ki, heyhat,
Üzümə baxmadan, “gedirəm” - dedin.

Bilmirəm, nə keçdi aramızdan, nə?
Niyə birdən-birə yad oldun mənə?
Yaşlı gözlərimlə baxdım üzünə,
“Adını qəlbimdən silirəm” - dedin...

# MƏNƏM

Səni eşqə saldım, ey yar!
Gəlbin oldu qubar-qubar,
Ürəyində bir yara var,
O yaranın adı mənəm.

Dönə-dönə üzdüm səni,
Xatırlama, unut məni!
Qəlbin demir dil deyəni,
Ürəyinin odu mənəm.

Bəlkə buymuş alın yazın,
Xəzan düşdü, soldu yazın!
Bu bəlalı sevdamızın
Dostu sənsən, yadı mənəm.

Qayıdaraq zaman-zaman,
İncidirəm səni yaman.
Bilirəm ki, unutmazsan,
Həyatının dadı mənəm.

Tələsmişik biz sevəndə,
Günahkarıq sən də, mən də.
Bir üsyan var ürəyində,
Qəlbinin fəryadı mənəm.

# YARIM VAR ...

Bəs məni illərlə gözləyəcəkdin?
Səni gözləyirəm, intizarım var!
Qəlbində çiçəktək bəsləyəcəkdin?
Sənsiz ürəyimdə ahu-zarım var!

Bu tənha könlümü isitdi eşqin,
Mənə ürəyimin parası dedin.
O şirin anları, söylə, neylədin?
Keçib xoş çağlarım, bədgüzarım var!

Nə xoşdu yarımın hər bir kəlməsi!
Heç kəs itirməsin sevdiyi kəsi!
İçimdə inləyir hicran nəğməsi,
Bir sınıq kamanım, bir də tarım var!

Vuruldum ruhuna, dəyanətinə,
Sığındım eşqinə, məhəbbətinə.
Həsrətəm o günəş hərarətinə,
Qəribəm, uzaqda bir diyarım var!

Çox yalan danışıb qəlbimi yordun,
Bir gün xəyanətlə sinəmdən vurdun.
Məni bağışlamaq olarmı? - sordun,
Səndən inciməyə ixtiyarım var!

Adını səsləyən mənim səsimdir,
Sənsiz yaşamıram, son nəfəsimdir.
Dünyada olmağın, inan, bəsimdir!
Bilim ki, hardasa mənim yarım var...

# GƏL, YENİDƏN BAŞLAYAQ!

Gəl, yenidən başlayaq yaşamağa, yenidən!
Bizimlə bir doğulsun ayımız, günəşimiz.
Gəl, yenidən başlayaq, sənlə yeni sətirdən
Ağ kağız üzərinə bəxtimizi yazaq biz.

Gəl, yenidən başlayaq, səadət bizim olsun,
Unudaq qəm-kədəri, qalmasın heç izi də.
Bu həyat kitabımız xariqələrlə dolsun,
Bir gün vərəqləyənlər yada salsın bizi də.

Gəl, yenidən başlayaq, bu dünyanı sevərək,
Yağışıyla, qarıyla, boranıyla barışaq.
İnanaq ki, bundan da gözəl günlər gələcək,
Yada salıb gəncliyi sevənlərə qarışaq.

Gəl, yenidən başlayaq yaşamağa, yenidən!
Bizimlə bir doğulsun ayımız, günəşimiz.
Gəl yenidən başlayaq, sənlə yeni sətirdən
Ağ kağız üzərinə bəxtimizi yazaq biz.

# NƏĞMƏLƏR

# BİR GÜNDƏ OLSA...

Ayrılıq bir gün də olsa,
Gözlərim yollarda qalar.
Sənsiz ürəyimi qəm-kədər alar,
Ayrılıq bir gün də olsa.

*Nəqərat:*

Ömrümə həsrətin dumanı enər,
Sevincim yox olar, günəşim sönər,
Gündüzüm qaranlıq gecəyə dönər,
Ayrılıq bir gün də olsa.

Əsərsə bir soyuq külək,
Bitərmi bu arzu-dilək?
Məndə nə can qalar, nə də ki ürək,
Ayrılıq bir gün də olsa.

*Nəqərat:*

Təkrar.

# YAĞIŞ

*Bu şeirə gənc musiqiçi İrena İsaxanlı musiqi bəstələmişdir*

Bu sirri kimə söyləyim,
Dərdimə əlac eyləyim?
Acı dil yandırıb mıni,
Sevirəm, axı, neyləyim.

*Nəqərat:*

Bəs eyləməz bir xoş baxış,
Mənə öz sevgindən danış.
Yalvar buludlara, bəlkə,
Göz yaşımı yusun yağış.

Niyə bəs küsürsən məndən?
Bilirəm, sən də sevirsən.
İncimə, gəl, ay sevgilim,
Aşiqəm, axı, bilirsən.

*Nəqərat.*

Təkrar.

# NİYƏ GETDİN, ANA?!

Sizə qonaq gələydim,
Qapınızı döyəydim.
Qapının arxasından
Həzin səsin gələydi.

Ağarmış tellərində,
Qırışmış əllərində.
Dünyayın yükü vardı
Cılız çiyinlərində.

*Nəqərat:*

Sən getdin, xoş laylalar bitdi,
Gül bağımda tikanlar bitdi.
Sən getdin, ömrümün mənası itdi.
Niyə getdin, niyə getdin, ana, niyə?

O gülümsər gözlərin,
Məlhəm edən sözlərin.
Dizimin taqətiydi
O taqətsiz dizlərin.

Ana, - deyib ağlaram,
Gecə-cündüz sızlaram,
Göydəki fələklərin
Sinəsini dağlaram.

*Nəqərat.*
Təkrar.

# ƏLVİDA

*Bu şeirə İrena İsaxanlı musiqi bəstələmişdir*

Əlvida söyləyək, əlvida!
İnləyir qəlbimdə bu nida.
Gəl, külə dönməmiş sevgimiz,
Əlvida söyləyək, əlvida!

Əlvida söyləyək, əlvida!
Necə uzun oldu bu vida.
Gəl, buza dönməmiş gəlbimiz,
Əlvida söyləyək, əlvida!

*Nəqərat:*

Əlvida söyləyək ötən günlərə,
Nağıllara dönüb itən günlərə.
Əlvida, qayğısız gülüşlərimiz,
Əlvida, o gizli görüşlərimiz.

Əlvida söyləyək dönmədən,
Göz yaşlarımızı görmədən.
Günah nə sənindir, nə mənim,
Bizə düşmən oldu bu aləm.

Əlvida söyləyək dönmədən,
Sən hara, mən hara bilmədən.
Günah nə sənindir, nə mənim,
Bəlkə görüşərik yenidən?!

*Nəqərat.*
Təkrar.

# UNUTMA MƏNİ

Buludladrın qucağinda,
Gunəşin nur ocağinda
Ruhum uçur bir quş kimi
Unutma məni!

Pərvaz edib qalxdı birdən,
Azad oldu dəddən, qəmdən.
Tərk etdi bu zalım yeri,
Unutma məni!

*Nəqərat:*

Məndən sənə qaldı nələr,
Şirin-şirin xatirələr.
Yada salsan keçənləri
Unutma məni!

Baxıb əski rəsmlərə,
Əl uzatsan keçmişlərə,
Xatırlayıb o illəri
Unutma məni!

# BİLMƏDİM

*Bu şeirə bəstələnmiş mahnı Aygun Kazımovanın ifasında səslənir*

Adi bir payız günündə
Biz səninlə qarşılaşdıq.
Bu qəfləti təlatümdən
Həm sevindik, həm də çaşdıq.

Gözlərinə baxan kimi
Anladım ki, vurulmuşam.
Bu dünyada təkcə sənin,
Sənin üçün yaranmışam.

*Nəqərat:*

Nə sən durub-dayanmadın,
Nə mən saxlaya bilmədim.
Nə sən məni axtarmadın,
Nə mən araya bilmədim.

İllər gəldi, keçdi zaman,
Səni unuda bilmədim.
Bu doğruydu, yoxsa yalan -
Hələ anlaya bilmədim.

Borc verilir bizə həyat,
Saat-saat qaytarırıq.
Ömrü boyu xoşbəxtliyi
Uzaqlarda axtarırıq.

Gəlir ötür yanımızdan,
Qorumuruq məhəbbəti.
Tək qalanda anlayırıq
İtirmişik səadəti.

*Nəqərat.*

Təkrar.